# HOMER
# İliada

Tərcüməçi:
Ələkbər Ziyatay

qanun nəşriyyatı

# ΌΜΗΡΟΣ

# Ἰλιάς

Əfsanəvi yunan şairi, qocaman kor ozan Homerin "İliada" əsəri insan zəkasının yaratdığı əski sənət örnəyi və dərin məzmun, habelə yüksək sənətkarlıq nümunəsi kimi indi də yaşamaqdadır. Dünya ədəbiyyatının şöhrət qazanmış ən qədim əsərlərindən biri sayılan bu möhtəşəm epik poema milli yunan əsəri olmaqla yanaşı, eyni zamanda bəşəriyyətin malıdır. Bütün əsrlərə və bütün xalqlara eyni dərəcədə aid olan "İliada" yunanların həyatını tam zənginliyi və bütövlüyü ilə göstərir.

Xalqın bütün daxili qüvvələrini gərginləşdirib zahirə çıxaran, onun tarixində yeni bir dövr açaraq sonrakı həyatına təsir göstərən ümumxalq ölçüsündə bir müharibə – Troya müharibəsi "İliada"nın məzmununu təşkil edir. Homer özü Troya müharibələrinin müasiri olmadığı halda, İlionun dağıdılmasının gurultusunu bütün varlığı ilə duymuşdur. Odur ki, müəllif təsvir və tərənnüm etdiyi hadisələrin iştirakçısı kimi görünür.

"İliada" qəhrəmanları müəyyən şəraitdə öləcəklərini qəti surətdə yəqin etdikləri halda qarşılarına qoyduqları məqsəd uğrunda, azadlıq yolunda cəsarətlə meydana atılır, mərd-mərdanə vuruşur, ləyaqətlə həlak olurlar. Buna görədir ki, əsər dünya poeziyasında qəhrəmanlıq və qəhrəmanlar dastanı kimi əbədi ad qazanmışdır.

**Ὅμηρος** **Ἰλιάς**
**HOMER** **İliada**
Bakı, Qanun Nəşriyyatı, 2024, 568 səh.

Janr: epos
Yaş qrupu: 12+
Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 06.12.2024

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Mikayıl Rzaquluzadə
Korrektor: Elsevər Muradov
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-586-10-7

© Qanun Nəşriyyatı, 2024
© Azərnəşr, 1978



«İliada» və «Odisseya» milli yunan əsərləri olmaqla bərabər eyni zamanda bütün bəşəriyyətin malıdır, bütün əsrlərə və bütün xalqlara eyni dərəcədə aiddir».

V.Q.BELİNSKİ

Dünya ədəbiyyatının ümumbəşəri şöhrət qazanmış ən qədim, şah əsərlərindən biri, bəlkə də birincisi sayılan «İliada» insan zəkasının yaratdığı qədim sənət nümunəsi kimi, dərin məzmun və yüksək sənətkarlıq nümunəsi kimi, indi də yaşamaqda, min-min illərlə bundan əvvəl olduğu kimi indi də eyni dərəcədə, bəlkə daha artıq maraqlıdır.

Maraqlıdır, – ona görə ki, insanın hələ uşaqlıq dövründən yer üzündə haqq-ədalət, azadlıq, bir sözlə, insana layiq həyat uğrunda yorulmadan mübarizəyə girişdiyini, bu uğurda ən qorxunc qüvvələrlə, öz uşaq xəyalının yaratdığı ən qadir Allahlarla, onlardan da güclü olan talelə ölüm-dirim savaşına girişməkdən çəkinmədiyini göstərir.

Maraqlıdır, – ona görə ki, ümumbəşəri mədəniyyət və incəsənətə bir çox ölümsüz əsərlər vermiş qədim yunan xalqı ilk gənclik dövrünə xas olan çox zəngin yaradıcı xəyal sayəsində bu şah əsəri də, onun müəllifi sayılan qocaman kor ozan Homeri də rəngarəng əfsanə və əsatir pərdələrinə bürümüşsə də, aradan uzun-uzun əsrlər keçdiyinə baxmayaraq, əks etdirdiyi həyat və mübarizə lövhələrinin əlvan rəngləri bütün təravət və çalarları ilə indi də par-par parıldayır, bizi valeh və heyran edir.

Maraqlıdır, – ona görə ki, insanın yaradıcılıq qüdrətinin tükənməzliyini, ölümsüzlüyünü nümayiş etdirən həqiqi sənətin yalnız bu və ya digər xalqa deyil, bütün insanlığa məxsus olduğunu, ümumbəşəri yaradıcılıq həmrəyliyində, xalqlar arasında sarsılmaz mədəniyyət birliyinə xidmət etdiyini, beynəlxalq bir yaradıcılıq ittifaqının həqiqi varlığını sübut edir.

Maraqlıdır, – ona görə ki, insan zəkasının ən qədim və ən gənc, ən yeni bir abidəsi kimi daim yaşayır, hər xalqın dilində dönə-dönə yenidən yaranmaqla onum mədəniyyət xəzinəsini zənginləşdirir.

«İliada»nın belə cahanşümul məna və əhəmiyyət qazanmasının səbəbi və əsərin mahiyyəti haqqında söylənilənləri, tədqiqatçıların və başlıca olaraq böyük rus tənqidçi və nəzəriyyəçisi V.Q.Belinskinin mülahizələri əsasında belə xülasə etmək olar.

Epopeya hər bir zaman ədəbiyyatın ən yüksək növü və incəsənətin tacı sayılmışdır. Bunun səbəbi odur ki, yunanlar və onlardan sonra zamanımıza qədər bütün xalqlar «İliada»ya çox böyük rəğbət və hörmət bəsləmişlər. Çünki bu əsər yunanların həyatını bütün zənginliyi və bütövlüyü ilə ifadə edir və qədim zamanın ən böyük əsərlərindən biridir.

Xəlqilik epik poemanın əsas şərtlərindəndir. Şair belə əsərdə hadisələrə öz xalqının gözləri ilə baxır, öz şəxsiyyətini bu hadisələrdən ayırmır. Lakin epopeyanın son dərəcə milli olmaqla bərabər, eyni zamanda bədii bir əsər ola bilməsi üçün xalq həyatının xüsusiyyətlərinin ümumbəşəri, cahanşümul bir məzmuna malik olması lazımdır. Yunanların həyatı belə idi. Buna görə də onların kainat və allahların yaranması haqqında hətta körpə danışığına bənzər nəğmələrində də elə ideyalar var ki, bunlar sonralar bütün insanlığın malı olmuşdur. Buna görə də «İliada» və «Odisseya» milli yunan əsərləri olmaqla bərabər, eyni zamanda bütün bəşəriyyətin malıdır, bütün əsrlərə və xalqlara eyni dərəcədə aiddir, dünyanın bütün dillərinə az, ya çox dərəcədə asanlıqla tərcümə oluna bilər.

Yunanlar öz körpəlik dövrlərində bütün insanlığın körpəlik dövrünü təmsil etmişlər və Homerin poemaları vasitəsilə bəşəriyyət incə və həssas bir qəlblə ən parlaq körpəlik dövrünü xatırlayır.

Epopeyaya məzmun ola bilmək üçün, xalqın ümumi həyatında baş vermiş dərin və geniş təsirli bir hadisə alınmalıdır. Xalqın körpəlik

dövründə onun həyatı başlıca olaraq igidlik, cəsarət və qəhrəmanlıq halında təzahür edir. Buna görə də xalqın bütün daxili qüvvələrini gərginləşdirib zahirə çıxaran, xalqın tarixində yeni bir dövr təşkil edən və onun bütün sonrakı həyatına təsir göstərən ümumxalq ölçüsündə bir müharibə epopeya üçün ən gözəl və zəngin mövzu və məzmun verə bilər. Əfsanəvi Troya müharibəsi məhz belə bir hadisə idi və bu hadisə «İliada» və «Odisseya»nın məzmununu təşkil edir.

Əsərin mövzu və məzmunu bu növə məxsus olub, sonrakı bir çox şah əsərlərdə, məsələn, Firdovsinin «Şahnamə»si, Nizaminin «Xəmsə»si, Hötenin «Faust»u və sair ölməz əsərlərdə olduğu kimi, xalq qəhrəmanlıq dastanları, əsatir və rəvayətlərdən alınmışdır. «İliada» Troya müharibələri haqqındakı qədim yunan əsatirlər silsiləsinin yalnız ortalarından bir neçə halqanı əhatə edir. Burada təsvir və tərənnüm edilən hadisələrin əvvəli və axırı oxucuları, daha doğrusu, dinləyicilərə (çünki əsər şifahi mahiyyətdə olub, bizim «Dədə Qorqud» kimi sonradan toplanıb qələmə alınmışdır) məlum hesab edilir. Buna görə də əsərdəki hadisələri tamam-kamal başa düşmək üçün bunların əvvəli və sonu haqqında bu kitabın sonundakı izahların giriş hissəsində müxtəsər məlumat verilmişdir.

Əsərlərin müəllifi məsələsinə gəlincə, bu da yarı əfsanəvi, yarı tarixi bir şəxsiyyət olub, haqqında geniş və mübahisəli bir ədəbiyyat yaranmışdır. Homerin varlığını inkar edənlər də, təsdiq edənlər də var, – bununla bərabər doğulduğu və yaşadığı zaman və məkan məlum deyilsə də, bu əfsanəvi kor ozanın vətəni olmaq şərəfi uğrunda Yunanıstanın yeddi şəhəri: İzmir, Rodos, Kolofon, Kalamin, Xios, Arqos, Afina bir-birilə bəhs edir. Zaman və məkan uzaqlığı nəzərə alındıqda, nisbətən daha yaxın bir zaman və məkanda yaranmış bir çox böyük dastan və epopeyaların müəllifi, zaman və məkanları haqqında, məsələn, bizim Dədə Qorqud və Koroğlu haqqında olduğu kimi (bir çox türk dilli xalqlar asında Qorqud məzarları və Koroğlu qalaları olduğu məlumdur), belə bir mübahisə heç də təəccüblü deyil, – əksinə, bu, yalnız həmin əfsanəvi müdrik nəğməkar və qəhrəmanlara xalqların dərin məhəbbətinin ifadəsidir.

Hər halda, Homer adı özü də bəzən ümumiləşdirilmiş şəkildə olan, aşıq, kor nəğməkar mənalarında izah olunursa da, cahanşümul bir şöhrət

və məhəbbət qazanmış «İliada» və «Odisseya» əsərlərinin müəllifi (yarı əfsanəvi olsa da – Homer) sayılır. Yaşadığı dövr isə, bizim tarixdən əvvəlki 750-ci illər təxmin olunur. Bu barədə də Belinskinin qeydlərinə əsaslanaraq, demək olar ki, Homerin yaşadığı zaman Kserksin Yunanıstana hücumundan 600 il əvvəllərə aiddir. Bu zaman xalq artıq körpəlik dövründən çıxmış, öz mənəvi həyatının tam inkişaf dövrünə yetişmişdi. Deməli, Homer «İliada»da göründüyü kimi, bir körpə qoca, sadədil dahi idi ki, təsvir etdiyi hadisələrin məhz onun öz ilhamlı təsəvvüründə idi və əsər onun öz müqəddəs etiqadının, ən dərin qənaət və inamının ifadəsi idi.

Lakin Homer Troya müharibələri zamanı yaşamamış, ondan təxminən iki yüz il sonra dünyaya gəlmişdir. Əgər Homer bu hadisələrin müasiri olsaydı, ondan poema yarada bilməzdi: gərək hadisə körpə xalqın canlı yaradıcı xəyalının məhsulu halını alıb, şairanə rəvayətlərə çevriləydi. Gərək bu hadisələrin qəhrəmanları uzaq bir məsafədən, keçmişin dumanları arasından görünəydi ki, onları başdan-ayağa şan-şöhrət parıltıları ilə bəzəyəydi. Çünki körpəlik dövrü keçirən bir xalqın nəzərində öz zamanında, hal-hazırda baş verən hadisələr şairanə əsərlər üçün mövzu ola bilməzdi…

Lakin Homerin yaşadığı dövr əsərlərində təsvir və tərənnüm etdiyi dövrdən o qədər də çox fərqli deyildi. O müharibələr dövrünə aid rəvayətlər hələ canlı idi, bu rəvayətlərə tarixi həqiqətlərə inanan kimi inanırdılar. Keçmişlə müasirlik arasında böyük bir fərq görmürdülər. Buna görə də Homer özü Troya müharibələrinin müasiri olmadığı halda İlionun dağıdılmasının gurultularını bütöv varlığı ilə duyurdu. Odur ki, Homer təsvir və tərənnüm etdiyi hadisələrin iştirakçısı kimi görünür.

«İliada»nın müasir oxucu tərəfindən düzgün anlaşılması üçün onun bəzi mühüm xüsusiyyətlərinin nəzərə alınması vacibdir. Bunlardan biri budur ki, əsər quldarlıq dövründə, yunan xalqının uşaqlıq dövründə yaranmış, əsərdə insanlar arasındakı münasibətlər bu dövrün dünyagörüşü ilə bağlı olub kainatı, dünyanı, təbiət və cəmiyyət hadisələrini məhz belə ibtidai bir görüşlə göstərir. Təbiəti də, cəmiyyəti də, hətta ayrılıqda insanların hərəkət və rəftarını da saysız-hesabsız allahlar idarə edir.

Başlıca allahlar – Kronidlər: Zevs, Poseydon və Aid dünyanı öz aralarında bölüşmüşlər. Bu barədə dənizlər allahı Poseydon deyir:

*Kron ilə pak Reyadan biz üç qardaş doğulmuşuq:*
*Zevslə mən, bir də Aid – yer altının hökmdarı.*
*Üçə böldük hər bir şeyi, öz payını aldı hərə.*
*Qürə atdıq, boz dənizlər əbədilik mənə düşdü.*
*Aidəsə qismət oldu yerin altı, qara zülmət,*
*Zevsə düşdü fəzalarla, buludlarla geniş səma.*
*Yerlə uca Olimpə də hər üçümüz ortağıq biz...*

Bu başlıca allahlardan başqa ayrı-ayrı «sahələrlə» məşğul olan bir çox allahlar da var: Apollon, (Feb), oxatan allah, Hermes – müvəffəqiyyət allahı, Ares – hərb allahı, Artemida – ov ilahəsi, Afina – zəka və əl işləri, eyni zamanda hərb ilahəsi. Hera – baş ilahə, Hefest – od allahı, dəmirçi allah və sairlər...

Homerə görə, müqəddəs uca Olimpdə yaşayan bu allahlar tamamilə insanlaşdırılmışdır. Onlar hakimiyyət uğrunda bir-birilə çəkişir, vuruşurlar. Məsələn, baş allah qadir Zevs öz atası Kronu zorla yeraltı Tartarda əbədi həbsə məhkum edib onun yerinə keçmişdir. Kron isə, vaxtilə öz atası Uranı yıxıb hakimiyyəti ondan almışdır...

Bütün bu allahlar əsər boyu hadisələrin gedişinə bu və ya digər şəkildə müdaxilə edir, vuruşan tərəflərə ya kömək edir, ya ziyan vurur, bu arada özləri də bir-birini aldadır, bir-birilə söyüşür, vuruşurlar; məsələn, dəniz allahı Poseydonun axeylilərə kömək etməsinə Zevsin mane olmamağı üçün, baş ilahə Hera onu aldatmaq məqsədilə geyinib bəzənir, tilsimlə onda eşq ehtirası oyadır. Zevs onunla həmağuş olmaq istəyəndə isə nazlana-nazlana hiylə ilə deyir:

*Ay aman!... Ay Kron oğlu, bu nə sözdür deyirsən sən?*
*Məni burda nəvazişlə öz qoynuna alacaqsan?*
*Bu İdanın zirvəsində, göz önündə, açıq-aşkar?*
*Allahlardan biri burda bizi birgə yatmış görsə,*

*Sonra gedib allahları toplayaraq, hamısına*
*Bizi belə yatmış halda göstərərsə, necə olar?*
*...Bu xəcalət məni tamam rüsvay edər...*

*Buludyığan Kronion belə dedi cavabında:*
*«Heç qorxma sən, Hera! Bizi nə allahlar, nə fanilər*
*Əsla görməz... Zərli bulud çəkərəm mən dövrəmizə...»*

Beləliklə, Zevsi aldadıb öz ağuşunda yatırdır və onun arzusu xilafına axeylilərə kömək edir.

Allahlar da tamamilə insanlar kimi bir-birini hətta söyürdülər. Əsərdə allahlar arasında gedən qızğın savaş belə təsvir edilir.

*Yer dəhşətlə sarsılırdı allahların savaşından,*
*Uğultuyla səs verirdi buna göydən əks-səda.*
*Olimpdə Zevs eşidərək bu səsləri gülümsünür.*
*Sevinirdi allahların bir-birilə vuruşundan.*
*Xeyli müddət onlar tamam sakitdirlər... Bu savaşı*
*Qalxanqıran Ares salıb, ilk olaraq, əldə nizə,*
*Afinaya hücum edib həqarətlə söyləmişdi.*
*«Yenə də, ey itmilçəyi, fitnə-fəsad həvəsilə*
*Allahları qızdırırsan! Nədir qəsdin, ay bihəya?*

Onlar həm bir-birilə söyüşüb-vuruşur, həm də insanların vasitəsilə bir-birini vurdururlar. Digər tərəfdən də bu və ya digər səbəblə, ya öz mənfəətlərini güdərək, ya da bir-birinin acığına ayrı-ayrı cəngavərlərə kömək edir və ya mane olurlar: məsələn, axeylərin baş sərkərdəsi Aqamemnondan küsüb müharibələrdə iştirak etməyən Axilles troyanların baş sərkərdəsi Hektorun artıq axeylərə tamamilə qalib gəlib onların gəmilərini yandırmağını gördükdə, öz sevimlisi Patrokla döyüş libasını geyindirib savaş meydanına göndərdikdə, o, troyanları məğlub edir. Troyanların tərəfdarı olan allah Feb-Apollon buna qəzəblənib özü doğrudan-doğruya meydana girir və:

*Qatı zülmət pərdəsində yaxınlaşdı o Patrokla,*
*Arxasında durub, birdən dəhşətli zor yumruğuyla*
*Vurdu onun kürəyindən, gözlərinə çökdü zülmət...*

Beləliklə, allah Apollon Patroklu gücdən salır, silahını əlindən alıb zirehini soyunduraraq, düşmənləri tərəfindən asanlıqla öldürülməsinə bais olur.

Allahlar nəinki belə canlı savaşlarda, hətta oyun-əyləncə və yarışlarda da insanların işlərinə qarışır, verdikləri və ya nəzir etdikləri qurbanlar, hədiyyələr müqabilində onlara kömək edirlər. Patroklun dəfn mərasimi münasibətilə təşkil edilən oyunlarda yeyinayaq Ayaks ilə Odissey bir-birilə bərk qaçmaqda yarışanda, Ayaks öz hünərinə güvənərək allahlara heç bir nəzər vermir, dua etmir, Odisseyi ötdüyü halda, Odissey bayquşgöz ilahə Afinaya yalvarıb dua edir, ilahə də işi elə gətirir ki, Ayaksın ayağı mal təzəyinə batıb sürüşür, o yıxılır və Odissey yarışda qalib gəlir. Beləliklə, adi bir təsadüf kimi görünən bu hadisə də allahların müdaxiləsi nəticəsində baş verir. Ayaks özü də buna inanır və o:

*Təzəklərə tüpürərək, belə dedi argivlərə:*
*«İşə baxın! Odisseydən ana kimi ayrılmadan*
*Kömək edən o ilahə çəkdi mənim ayağımdan!».*

Aydın görünür ki, «İliada»da allahlar özləri də hissiyyata qapılaraq hadisələrə qərəzkarlıqla müdaxilə edir, insanlara qoşulur, cürbəcür qiyafətlərə girərək, hiyləgərlik edirlər. Onlar bir-biri əleyhinə mübarizədə dəstəbazlıqdan, yalançılıqdan, bir-birini aldatmaqdan, hətta döyüb-söyməkdən də çəkinmirlər. Beləliklə, əsərdə baş verən hadisələrin bu və ya digər şəkildə nəticələnməsinə təsir göstərirlər – yəni əsərdə din ictimai həyatın hər cəhəti ilə doğrudan-doğruya bağlıdır.

Bununla bərabər, istər ayrı-ayrı allahların, istərsə baş allah Zevsin özünün də qüdrəti tamam-kamal deyil, ondan da üstün bir qüvvə var ki, o da hər şeyə qadir və hakim olan taledir.

Belinskinin dediyi kimi: «İliadada tale hakimdir. O, yalnız insanların deyil, allahların özlərinin də hərəkət və rəftarını idarə edir».

Vuruşmalarda kimin qalib gələcəyini, hansı qəhrəmanın nə zaman və necə öləcəyini tale əvvəlcədən təyin etmişdir. Əsərin baş qəhrəmanlarından Menet oğlu Patroklun ölümü barəsində qara xəbəri hələ almamışdan, Axilles öz çadırı qabağında oturub belə düşünür:

*O allahlar yoxsa mənə bəd bir xəbər göndərirlər –*
*Təsdiq üçün anam mənə söylədiyi bu sözləri:*
*Mən sağ ikən, mirmidonlu igidlərdən ən yaxşısı*
*Gün nurundan ayrılacaq Troyada savaşlarda...*
*Ah, yoxsa, o mərd qəhrəman Menet oğlu həlak olub?...*

Deməli, Patroklun öləcəyi barədə taleyin hökmü əvvəlcədən Axillesin anasına və özünə məlum imiş. Axilles əziz dostu Patroklun intiqamını almaq qərarına gəldikdə, anası onu xəbərdar edir ki, o, Patroklun qatili Hektoru öldürərsə, taleyin hökmünə görə, özü də öləcək. Axilles isə, bu hökmü qeydsiz-şərtsiz qəbul etməyə hazırdır.

*Əgər qismət belə isə, ölməyə də hazıram mən!...*

Allahların ən böyüyü və ən qüdrətlisi olan Zevs bütün varlığı ilə Hektorun xeyirxahı olduğu halda, hər addımda onun qayğısına qaldığı halda, yenə ona əsla kömək edə bilmir, qadir taleyin hökmü ilə razılaşmalı olur:

*Zevs ata alıb qızıl tərəzini, – hər gözünə*
*Qoydu əzab-əziyyətli məşum ölüm qürəsini.*
*Tən ortadan qaldıranda, Hektorunku ağır gəldi,*
*Çəkdi onu Aid sarı… Feb də ondan üz döndərdi…*

Taleyin hökmü ilə Hektor da həlak olduqdan sonra, gümüş ayaqlı ilahə Fetida də əlbəttə, öz oğlu Axillesi taleyin hökmündən qurtara bilmir.